

# Bayrağımızın azad edilmiş torpaqlarda dalğalanmasına az qalıb



***Ali Baş Komandanın böyük siyasi iradəyə malik olması bizi qələbəyə addım-addım yaxınlaşdırır. Milli Ordumuz düşmənə ağır zərbələr endirərək işğalçı Ermənistan ordusunu geri çəkilməyə məcbur edir. Əks-hücuma keçərək işğal olunmuş ərazilərimizin bir hissəsini azad edən ordumuz irəliləyir, xalqımızın böyük qələbəyə inamını daha da artırır və yaxınlaşdırır. Təəssüf ki, hər şey dünyanın gözü qarşısında baş versə də, bu gün terrorçu dövlət olan Ermənistana qarşı güzəştli mövqe göstərilir.***

O da məlumdur ki, erməni təxribatları artıq sistemli xarakter daşıyır. Yəni təxribatlar nəinki cəbhədə, Ermənistan dövlətinin ayrı-ayrı siyasi bəyanatlarında, həmçinin informasiya məkanında aparılır. İşğal olunmuş ərazilərdə qeyri-qanuni məskunlaşma aparılması, Ermənistanın həyasızcasına beynəlxalq hüquqa saymazlıq nümayiş etdirməsi, Azərbaycanın beynəlxalq hüququ qorumasını, həmçinin bölgədə əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə dövlət başçısı tərəfindən hərbi vəziyyət və qismən səfərbərlik elan olunmasını zəruri etdi. Ölkədə hərbi vəziyyət elan edilməsi dünya azərbaycanlılarının zəfər bayramını yaxın zamanlarda qeyd edəcəyindən, Azərbaycanın ərazi bütövlüyünün tezliklə bərpa olunacağından xəbər verir.

ATƏT-in Minsk qrupunun həmsədr ölkələri – Rusiya, Fransa və ABŞ prezidentləri status-kvonun qəbuledilməz olduğu ilə bağlı bəyanatlar səsləndirsələr də, təəssüflər olsun ki, 30 ilə yaxın bir dövrdə Azərbaycan torpaqlarının işğaldan azad edilməsi ilə bağlı qəbul edilən BMT qətnamələri kağız üzərində qalmaqdadır. Bu qərarlara Ermənistan tərəfindən məhəl qoyulmayanda Minsk qrupunun həmsədrləri niyə susur, tədbir görmür, çağırış etmirdilər? Fransa öz ərazisində terrorçulara qarşı mübarizə aparanda Azərbaycan onlara məsləhət, göstəriş vermir, çağırış da etmirdi. İndi də Azərbaycan öz ərazisində antiterror əməliyyatları aparır.

Bəzi dövlətlər, eləcə də Minsk qrupunun həmsədrləri növbəti dəfə ikili yanaşma sərgiləyirlər, məsləhətlər verirlər, müharibəni dayandırmağı təklif edirlər. Məgər həmin dövlətlər və beynəlxalq təşkilatlar Ermənistanın azərbaycanlı uşaqları, qadınları, qocaları qətlə yetirdiyini görmürlərmi? Yaxud Naftalanda üzvlərinin ikisi uşaq olmaqla bir ailənin tamamilə məhv edilməsini görmürlərmi? Ermənistan silahlı qüvvələri Tərtəri, Goranboyu, Daşkəsəni, Ağdamı, Bərdəni və digər əraziləri bombardman edərkən beynəlxalq hüququn pozulması baş vermirmi? Bəyəm Azərbaycan əhalisini qorumaq və işğal edilmiş tarixi torpaqlarını geri qaytararkən qanunu, hüququ pozmuş olur? Buradan da görünür ki, Azərbaycana qarşı qərəzli mövqe, ikili standartlı yanaşma açıq-aşkar ortadadır. Buna görə də, cənab Prezidentin qeyd etdiyi kimi, bu gün Azərbaycanın yalnız real addımlara ehtiyacı var.

Əlbəttə, torpaqlarımızı azad edəcəyik. Qarabağı tam azad etməyimizə az qalıb! Tarixi ədaləti bərpa edəcəyik! Daha yaxşı şəhərlər salacaq, yeni abidələr tikəcək, dağıdılmış evlərimizdə mümkün olan qədər təmir-bərpa işləri görəcəyik! Mən özüm Ermənistandan yurd-yuvasını 1988-ci ilə qoyub gələnlərdənəm. Erməni xislətinə – hiyləgərliyinə, siyasətinə və xainliyinə yaxşı bələdəm. Yaxşı ki, dünya artıq Ermənistanın işğalçı siyasətinə, Azərbaycanın isə tarixi ədalətin bərpası üçün mübarizə apardığına şahidlik edir. İndi bütün dünya bilir ki, Qarabağ Azərbaycandır! Bu, faktdır və xalqımız bu həqiqət uğrunda mübarizə aparmağa, canından, qanından keçməyə hazırdır. Bir həftədir ki, ordumuz Dağlıq Qarabağı və ətraf rayonları erməni işğalından azad etmək üçün müqəddəs savaşa başlayıb. Ölkəmiz üçün bu çətin, həssas və tarixi baxımdan şərəfli günlərdə xalqımız bütün varlığı ilə Ali Baş Komandanın, ordumuzun yanındadır. Bu gün hər bir Azərbaycan vətəndaşı bu müqəddəs savaşın önündə gedən əsgər və zabitlərimizlə fəxr edir.

Onu da qeyd etmək istəyirəm ki, Ermənistan silahlı qüvvələrinin mülki vətəndaşlarımızı qətlə yetirməsindən sonra başlanan genişmiqyaslı əks-hücumun davam etdiyi bu 7 gün ərzində Azərbaycanın qardaş, dost Türkiyədən, Pakistandan, Ukraynadan, İsraildən və bir sıra başqa ölkələrdən, beynəlxalq təşkilatlardan tam dəstək görməsi xalqımızı, eləcə də ordumuzu ruhlandırır. Bu gün xalq --Ali Baş Komandan – Ordu birliyi öz sözünü deyir. Qarabağın azad olunması xalqın istəyidir. Ermənipərəstlərin otuz ildir məsləhət verdikləri bəsdir. Azərbaycan xalqı 30 ildir ki, dözüm göstərir, gözləyir. Artıq işğal edilmiş torpaqlarımızın azad olunması 50 milyonluq azərbaycanlının həyat amalıdır. Öldü var, döndü yoxdur!

İnanmayanlar, Azərbaycanı "militarist" adlandıranlar gəlib öz gözləri ilə Qan Bankının qarşısında könüllü olaraq qan vermək istəyən minlərlə insanı, yaxud səfərbərlik idarələri qarşısında döyüşə könüllü getmək istəyən minlərlə vətənpərvəri görə bilərlər. Küçələrdə milli ruhu yüksəldən Türkiyə və Azərbaycan bayraqlarını qoşa görmək qəlbimizi riqqətə gətirir. Arzu edirəm ki, bu qoşa bayraqlar yaxın günlərdə azad edilmiş Azərbaycan torpağının hər kəndində, hər şəhərində dalğalansın! O gün uzaqda deyil! İnanıram ki, yaxın zamanda torpaqlarımızın azad olunması münasibətilə bir-birimizi təbrik edəcəyik!

***Rasim QƏHRƏMANOV,***
***"Medikal Plaza" klinikasının***
***şöbə müdiri, tibb elmləri namizədi***

Xalq qəzeti 2020.- 4 oktyabr.- S.4.